# Prezident Əliyev beynəlxalq görüşlərdə postmüharibə reallıqlarını necə müdafiə edir...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

**Azərbaycan həm hərb, həm də informasiya meydanında qalib gəldi. Elə informasiya müharibəsinə də Prezident İlham Əliyev rəhbərlik edirdi. İkinci Qarabağ müharibəsi dövründə Prezidentin dünya ölkələrinin 30-dan çox KİV-nə müxtəlif səviyyələrdə verdiyi müsahibələr bizə bu istiqamətdə də uğur qazandırdı.**



Müasir dövr, doğrudan da, informasiya müharibəsi dövrüdür, yəni, döyüşən təkcə ordular deyil. Müharibə zamanı hər iki tərəfin ideologiyası, təbliğat maşını işə düşür. Azərbaycan Vətən müharibəsində Ermənistanın yaydığı uydurma məlumatları məhdudlaşdırır, onlara tutarlı cavablar verirdi. Həmin dövrdə ölkəmizin kütləvi informasiya vasitələri həm xaricə, həm də daxilə yönəlik kifayət qədər uğurlu iş ortaya qoydular. Vətən müharibəsi də sübut etdi ki, uğurlu aparılan təbliğat işi, informasiya mübarizəsi düşmən üzərində qələbə qazanmaq üçün zəmin yaradır. Prezident İlham Əliyevin xarici KİV-nin suallarını bir neçə dildə səlis şəkildə, səbirlə və dəqiq cavablaması Azərbaycanın informasiya müharibəsində qələbə qazanmasını təmin etdi. Bu uğurlu proses postmüharibə dövründə də davam etdirilir.

**Prezident dəfələrlə erməni vandalizminin izlərini nümayiş etdirirdi**

Dövlət başçısının addığı hər addımında həm də informasiya müharibəsinin elementi var. Misal üçün, torpaqlarımız işğaldan azad edildikdən sonra Prezident dəfələrlə həmin ərazilərə səfərləri zamanı sükan arxasından erməni vandalizminin izlərini nümayiş etdirirdi. Təbii ki, Azərbaycan Prezidentinin hər bir səfəri, hər sözü dünya mediası tərəfindən yaxından izlənilir. Ona görə də əminliklə qeyd etmək olar ki, Prezident işğaldan azad edilmiş ərazilərə səfəri zamanı informasiya müharibəsini də həyata keçirirdi. Ermənistanın Azərbaycan torpağında törətmiş olduğu cinayətləri dünyaya təqdim edirdi. Çox mühüm bir məqamı da xatırlatmaq istərdim: Şuşa Bəyannaməsinin imzalandığı ərazi dağıntılardan ibarət idi. İki dövlət başçısının bəyannaməni imzaladıqları yerin fonu məhz Ermənistanın törətmiş olduğu dağıntılar idi. Bu tarixi hadisə dünya mediası, dünya ictimaiyyəti tərəfindən çox yaxından izlənilirdi. Ona görə də Ermənistanın vandalizminə məruz qalmış məkanın fon kimi seçilməsi təsadüfi deyildi. Cənab Prezident burada da strateji baxış sərgiləyərək Ermənistanın törətdiyi dağıntıların izlərini də dünyaya növbəti dəfə nümayiş etdirdi. Bir sözlə, Azərbaycanın beynəlxalq informasiya məkanında mövqelərini inamla qoruyaraq Ermənistanın təcavüzkar dövlət obrazını dünyaya tanıtmaqda davam edir.

Son hadisələr, xüsusilə də Prezident İlham Əliyevin xarici səfərləri və orada keçirdiyi görüşlər, mətbuat konfransında səsləndirdiyi fikirlər bu qənaətə gəlməyə əsas verir ki, Ermənistanın siyasi rəhbərliyi getdikcə postmüharibə dövrünün reallıqlarını daha düzgün qiymətləndirməyə başlayır. Ermənistan Azərbaycanın irəli sürdüyü şərtlərlə razılaşmaq məcburiyyətindədir. İlham Əliyev keçirdiyi bütün beynəlxalq tədbirlərdə və görüşlərdə Azərbaycanın yaratdığı post-müharibə reallıqlarını prinsipial olaraq müdafiə edir. Bu kursdan bir addım da olsun geri çəkilmir. Ermənistan hakimiyyəti indiyə qədər müxtəlif bəhanələrlə sülh prosesini uzatmağa çalışıb. Amma döyüş meydanında "Dəmir yumruğ"un zərbəsi alan Ermənistan danışıqlar prosesində də Prezident İlham Əliyevin dəmir iradəsi ilə üzləşib. İlham Əliyevin keçirdiyi görüşlərdə qətiyyətli mövqeyi bir daha göstərdi ki, Azərbaycan heç bir halda haqlı mövqeyindən geri çəkməyəcək. Görünən odur ki, Azərbaycan 44 günlük müharibədən sonra yaranmış yeni reallıqları hər kəsə qəbul etdirir.

**İlham Əliyev bu görüşdə də öz ardıcıl siyasətini davam etdirəcək**

Müharibədən sonra qəbul olunmuş bəyanatlar faktiki olaraq o deməkdir ki, Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğu bir daha təsdiqlənir. Suverenliyi tanımaqla Ermənistan Qarabağ üzərində Azərbaycanın hakimiyyətini tanıyır. Prezident Qarabağda yaşayan ermənilərlə bağlı da dövlətimizin aydın mövqeyini ifadə edir. Bildirildi ki, Qarabağda yaşayan ermənilər Azərbaycan vətəndaşlarıdır və onlar bütün vətəndaşlar kimi hüquqlardan istifadə edəcəklər. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistan Baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş keçiriləcək. Tərəflər Moskvada bir araya gələcəklər. Liderlərin görüşündə sülh prosesi əsas müzakirə mövzusu olacaq. Onu da bildirək ki, Ermənistanın baş naziri bu yaxınlarda keçirdiyi mətbuat konfransında Azərbaycanın ərazi bütövlüyünü rəsmən tanıdıqlarını bəyan edib. Paşiyan Ermənistanın tanıdığı 86.600 kvadrat kilometr Azərbaycan ərazisinə Qarabağ və anklavların da daxil olduğunu bildirib. Əminik ki, İlham Əliyev bu görüşdə də öz ardıcıl siyasətini davam etdirəcək və bir daha dövlətimizin xeyrinə olan qərarların qəbuluna nail olacaq.

*Məhəmmədəli QƏRİBLİ*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**